**06.05.2010**
**MƏNBƏ: [www.mcg.ge](http://www.mcg.ge)**
**http://www.mcg.ge//?l=1&i=37&i2=3259**

# ABŞ Səfiri strateji əhəmiyyətə malik Samtsxe-Cavaxetiya yolunun davam edən reabilitasiya işləri ilə tanış oldu.




May ayının 6-da ABŞ-ın Gürcüstandakı səfiri John Bass, “Minilliyin çağırışı – Gürcüstan” Fondunun direktoru Corc Abuşelişvili, Minilliyin Çağırışı Korporasiyasının və tikinti şirkətlərinin nümayəndələri “Azərinşaatservis” MMC-nin Axalkalakidəki yol tikinti düşərgəsinə baş çəkdi.

“Azərinşaatservis” MMC “Minilliyin çağırışı – Gürcüstan” Fondu tərəfindən eland edilmiş beynəlxalq tenderdə qalib gələn 4 şirkətdən biridir. 50 milyon ABŞ dolları həcmindəki müqaviləyə əsasən Şirkət Teleti-Koda-Asureti (19 km) və Nardevani-Satxe (47,8 km) yollarının reabilitasiyası işlərini həyata keçirir. Yol tikinti-reabilitasiya işləri həmçinin “Aştrom” (İsrail), “Papneburg-Qara Dəniz Qrupu” birgə müəssisəsi (Almaniya-Gürcüstan) və “Akkord İnşaat Sənaye” (Azərbaycan) şirkətləri tərəfindən də həyata keçirilməkdədir.

Bu tikinti işləri “Minilliyin çağırışı – Gürcüstan”ın Samtsxe-Cavaxetiya yolunun reabilitasiyası layihəsi və Kvemo Kartli və Samtsxe-Cavaxetiya regionunun yol-nəqliyyat şəbəkəsinin bərpasını nəzərdə tutan 223 kilometrlik yolun reabilitasiyası layihəsi çərçivəsində həyata keçirilir.

Yolun bütün hissələrində tikinti işləri davam etdirilir. Artıq torpaq yatağının zəif hissələri bərkidilib, hamarlanıb, donmaya qarşı qat hazırlanıb. Yolun bəzi hissəslərində isə asfalt qatının birinci hissəsi vurulur.





